

## TƏBRİZƏ PÜNHAN

### ÖLÜM

Tanrım bizdən səni seçdi,
Qırx gün gəlib nə tez keçdi?
O qədər göz yaşı içdi,
Ürəyim də dözmür daha...

Dur, ey zaman, axıb getmə,
Ömrümüzü hədər etmə –
Nə asanmış ölüb-itmə,
Ölüm ucuz, ömür baha...

Dünya qurulmuş bir tələ,
Fürsət verir bir az hələ –
Vay o gün ki, vaxtın gələ,
Səni udur bir əjdaha...

Dəyirman üyüdür dəni,
Keçir karvan, çəkir səni –
Rahat qoymur bir kimsəni,
Sanma ümid var sabaha...

Yaratdığı hər bir insan,
Gəlib keçir bu dünyadan –
Fürsəti verib Yaradan
Nə nökərə, nə də şaha...

### QURULMUŞ TƏLƏ

Ələyim ələnib, xəlbirim gəzir,
Gəzir Əzrailin sorağı ilə.
Dişlərim tökülüb, dizlərim əsir,
Gəzirəm əlimin çomağı ilə.

Nə vaxt yaşım keçdi, nə vaxt qocaldım?
Özümün özümdən xəbəri yoxdur.
Nə vaxt bu çomağı əlimə aldım?
Gözümün görməyə təpəri yoxdur.

Dünya yalanlarla qatdı başımı,
Yıxdı üzərimə bütün dərdini.
Sonra yoxam kimi atdı daşımı,
Güldürdü üzümə ən namərdini.

Kaş insan yerinə bir daş olaydım,
Hörülüb qalaydım bir çəpərinə.
Axı nə biləydim, hardan biləydim?
Gəlmişəm bir ovuc torpaq yerinə.

Zaman yürüdükcə itir ləpirlər,
Bilmirəm onuncu babam kim olub.
Dünyaya gələnlər niyə gəlirlər?
Kimlər nə aparıb, kimdən nə qalıb?

Bu dünya əzəldən qurulmuş tələ,
Qalmışıq sahibin öz insafına.
İstər sən aslan ol, istər bir dələ,
Bir gün yığışarlar sənin başına.

Hələ görəcəyin başqa dünya var.
Dünya o dünyanın sınaq meydanı.
Bəlkə, yaxşılığın karına yarar,
Allah bağışlasın hər cür insanı...

### İNSAN YÜKSƏLDİKCƏ

İnsan qalxıb yüksəldikcə,
Ayağı yerdən üzülür.
Vəziyyəti düzəldikcə,
Yer yavaş-yavaş büzülür.

Göydən daha yaxşı seçir,
Harda dağ var, harda dərə.
Ürəyindən qorxu keçir,
Boylandıqca göydən yerə.

Yüksəldikcə ənginliyə,
Heç nə görünmür gözünə.
Nifrət edir zənginliyə,
O baxdıqca öz-özünə.